# Professor Qəzənfər Paşayev mədəniyyət naziri Anar Kərimova minnətdarlıq məktubu göndərib



***Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev Azərbaycan Respublikasının Mədəniyyət naziri Anar Kərimova minnətdarlıq məktubu ünvanlayıb. Məktubda deyilir:***

"Hörmətli cənab nazir,

Nazirliyinizin "Şuşa-270" döş nişanı təsis etməsi əlamətdar hadisədir. Şuşa mədəniyyətimizin paytaxtıdır.

Məni 85 illik yubileyim münasibəti ilə "Şuşa-270" döş nişanı ilə təltif etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Nazirliyinizin və Milli Kitabxananın təşkiltçılığı ilə yubileyimin, eləcə də ölkəmizdə və Güney Azərbaycanda çap olunan, Ulu öndərimiz və möhtərəm Prezidentimiz İlham Əliyevə həsr etdiyim "Xilaskarlar" kitabımın, "Seçilmiş əsərləri"min 11 və 12-ci cildlərinin, "Azərbaycanda və İraqda Bayat qəbilələri" kitabımın təqdimatının keçirilməsi, yığıncaqda nazirliyin şöbə müdiri Akif Maariflinin çıxışını, adınızdan mənə "Şuşa - 270" döş nişanını və vəsiqəni təqdim etməsini, tədbirdə çıxış edənlər, Xalq yazıçısı Anar, akademiklər İsa Həbibbəyli, Nizami Cəfərov, Parlamentin Mədəniyyət Komitəsinin sədri, professor Qənirə Paşayeva, Xalq şairi Sabir Rüstəmxanlı, professorlar Şirindil Alışanlı, Yasif Nəsirli, Elman Quliyev və başqaları yaradıcılığımı qiymətləndirməklə bərabər, Nazirliyin təşəbbüsünü ədəbiyyatımıza, elmimizə, ümumiyyətlə mədəniyyətimizə verilən qiymət kimi dəyərləndirdilər.

Hörmətli cənab Nazir, bir daha diqqətinizə və qayğınıza görə təşəkkürlərimi qəbul edin.

**Qəzənfər Paşayev**
**Əməkdar elm xadimi, professor".**